# Sülh körpüsü





## Xanım Min Liza və Bander Endinin söhbətləri ilə ABŞ-ın Universitet kitabxanalarına səyahət

*2005-ci ilin aprel ayından Kürdəmir Rayon MKS-nin binasında Regional Kitabxana Məlumat Mərkəzi (RKMM) fəaliyyət göstərir. Mərkəz fəaliyyət göstərdiyi bir müddətdən sonra burada ingilis dili kursları açılmışdır. ABŞ-nın əməkdaşı xanım Min Liza bu dərsləri çox böyük maraq və həvəslə dil öyrənmək istəyən hər bir kəsə öyrətməyə çalışmışdır. Xanım Min Liza və Banber Endi sülh korpusu təşkilatının xətti ilə ABŞ-dan Azərbaycana gəlmişlər. Onlar əvvəl Sumqayıt şəhərində 3 aylıq kurs keçərək Azərbaycan dilini və Azərbaycan mədəniyyətini öyrənmiş, sonra isə Kürdəmir rayonuna ezam olunmuşlar. Həyatımda ilk dəfə idi ki, uzaq ölkədən gələn dostlarımızla üz-üzə oturub müsahibə götürürdüm. Bu mənim üçün həm maraqlı, həm də unudulmaz oldu. Hətta məqaləmin adını seçməkdə də onlar mənə çox kömək etdilər.*

Onlar Amerikanın müxtəlif ştatlarından gəlmişdilər. Xanım Liza Texas ştatından, Banber Endi isə Keənəktikət ştatından gəlmişdilər. Onlar Azərbaycan dilində çox şirin və maraqlı danışırlar. Hətta dilimizdə az-az işlənən sözləri də onlar rahat deyə bilirdilər.

Mən onlara "Azərbaycanla tanışlıq zamanı ilk öncə sizi özünə cəlb edən nə oldu?" - sualını verəndə onlar duyğulandılar, çox səmimiyyətlə danışmağa başladılar. - Azərbaycan bütün insanlar üçün, xüsusilə də qəriblər üçün ən doğma bir yerdir. İnsanları o qədər mehriban, o qədər doğmadırlar ki, bizi qəriblik həsrəti çəkməyə, qərib olmağa qoymurlar. Bu da Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Onlar Azərbaycan barədə elə ürəklə, elə səmiyiyətlə danışırdılar ki, mən Azərbaycan adı ilə və bir də azərbaycanlı olmağımla fəxr edirdim.

Həm xanım Min Liza və həm də Banber Endi ABŞ-nın universitet məzunlarıdır. Onlar oxuduqları universitetin kitabxanaları ilə Azərbaycan oxucularını qiyabi də olsa tanış etmək istəyirlər.

Banber Endi Keəməktikət ştatında yaşayır. O, Məsiçisets ştatının Universitetində təhsil almış və oradakı kitabxananın ən fəal oxucusu olmuşdur. Amerikadakı kitabxanalar məşhur adamların adlarını daşıyır. Məsiçisets Ştatındakı Universitet kitabxanası da məşhur yazıçı E.B. Dutoisin adı ilə adlanır.

Bu kitabxana 26 mərtəbədən ibarətdir ki, ABŞ-da ən uca kitabxanalardan biri hesab edilir. Dutois adına kitabxananın 25 min oxucusu var. Kitabxana səhər saat 9-dan axşam saat 11-ə qədər işləyir. Bəzi hallarda isə 24 saat fasiləsiz fəaliyyət göstərir. Yalnız bazar günləri səhər saast 9-dan axşam saat 17-dək oxuculara xidmət göstərir.

Məsiçisets Ştatındakı E.B. Dutois adına Universitet kitabxanası hər il təxminən 25 min kitab alır. Burada əsasən oxucu marağı kitabxanaçılar tərəfindən öyrənilir. Oxucu marağına dair kitablar kitabxanaçılar tərəfindən sifariş edilir, az bir müddətdə həmin kitablarla kitabxana təmin olunur. Kitabxananın Elanlar guşəsində yeni alınmış kitabların siyahısı vurulur, həmin siyahı ilə oxucular tanış olurlar. Bu da oxucuların kitab seçimində işini xeyli yaxşılaşdırır. Elanlar guşəsinin qarşısı isə hər gün oxucu ilə dolu olur.

Məsiçisets Ştatındakı Universitetdə müxtəlif xalqların nümayəndələri təhsil alırlar. Buna görə də bu kitabxana dünya xalqalarının ədəbiyyatları vasitəsi ilə oxuculara xidmət göstərir. Universitetdə təhsil alan hər bir millətin nümayəndəsi bu kitabxanada istədiyi ədəbiyyatı, qəzet və jurnalı rahat əldə edə bilər. Bu da kitabxananın zənginliyindən xəbər verir.

Mən Bamber Endiyə "Kitabxana oxuculara necə xidmət göstərir və ya oxucular kitabxanadan necə istifadə edirlər?" - sualını verdim.

O, söhbətinə belə davam etdi:

- E.B. Dutois kitabxanası tam kompüterləşmişdir və elektoron kataloqu vasitəsi ilə oxuculara xidmət göstərir. Kitabxananın 1-ci mərtəbəsi oxucuları qəbul etmək üçün və evə kitab aparmayan yəni ancaq kitabxanada məşğul olan oxucular üçün nəzərdə tutulmuşdur.

Burada oxucular üçün hər cür şərait yaradılmışdır. Burada eyni zamanda ensiklopediyalar, lüğətlər, hökumət kitabları (Endi belə deyir), qaydalar haqqında və sair kitablar vardır ki, bu kitabları yalnız kitabxanada istifadə etmək olar. Oxucuların rahatlığı üçün kitabxananın 1-ci mərtəbəsində hər cür şərait yaradılmışdır. Kitabxanaya gələn hər bir oxucu ilk öncə kompüterin qarşısına keçir, lazım olan kitabın adını tapır, kompüter vasitəsi ilə həmin kitabın neçənci mərtəbədə, hansı sırada, neçə nömrəli kitab olduğunu öyrənir. Bundan sonra oxucu həmin kitabı rahat əldə edə bilir. Kitab götürən oxucuların kompüterdə kodları olur. Həmin kodlar oxucuların şəkilləri yapışdırılmış kartoçkalara yazılır. Oxucu kitabları qaytaranda həmin kod vasitəsi ilə kompüter açılır. Oxucunun götürdüyü kitablar,

eyni zamanda hansı müddətdə götürdüyü və qaytaracağı tarixlər bu kompüterlərdə öz əksini tapır.

E.B. Dutois adına Universitet kitabxanasında oxucular 2-ci mərtəbədən 26-cı mərtəbəyə qədər bütün kitab fondlarından istifadə edə bilərlər, istədikləri qəzet, jurnal və kitabları evə apara bilərlər. Bu kitabxanada bütün xidmət növləri pulsuzdur.

Kitabxananın hər mərtəbəsi kitabxananın bir şöbəsini təşkil edir.

Mən Endidən bu şöbələrin bəziləri haqqında qısa məlumat verməyi xahiş etdim. O, böyük həvəslə söhbətini davam etdirdi.

E.B. Dutois kitabxanasının çox zəngin və böyük oxu zalı vardır. Buna görə də oxu zalı oxuculara yüksək səviyyədə xidmət göstərə bilir. Bu kitabxanada yüksək tirajla qəzet və jurnallar alırlar ki, bu da oxucular tərəfindən böyük razılıqla qarşılanır. Oxucuların burada təkcə Amerika mətbuatı ilə deyil, dünyanın bir çox ölkələrinin mətbuatı ilə də tanış olmaq imkanı vardır.

Kitabxananın 11-ci mərtəbəsi Kompüter Mərkəzidir. Burada 40-dan çox kompüter avadanlığı yerləşdirilmişdir ki, bu da ancaq kompüterlə məşğul olan oxucularçün nəzərdə tutulmuşdur.

Kitabxananın 16-ci mərtəbəsi magistraturada oxuyan oxucular üçün nəzərdə tutulmuşdur. Bu şöbə kiçik kabinələrə bölünmüşdür. Bu kabinələrdə magistr tələbələr üçün hər cür gözəl şərait yaradılmışdır. Oxucular burada tam mənada elmi işlərlə məşğul ola bilirlər. İnternet şəbəkəsi vasitəsi ilə istədikləri məlumatları əldə edə bilirlər.

Digər mərtəbələrdən birində coğrafiya şöbəsi fəaliyyət göstərir ki, bu da coğrafiya fakültəsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu şöbədə bütün otaqlar coğrafi xəritələrlə tam əhatə olunmuşdur. Buraya eyni zamanda coğrafi ləvazimatlar, müxtəlif avadanlıqlar yığılmışdır. Bu kitabxanada Universitetin coğrafiya fakültəsində oxuyan tələbələrin öz ixtisasları üzrə hərtərəfli savadlanması üçün hər cür şəraitləri vardır. Əlbəttə bu siyahını xeyli artırmaq olar, bu ancaq bəzi şöbələr haqqında olan qısa məlumatlar idi, söylədi Bamber Endi.

Bundan sonra xanım Min Liza söhbətə başladı.

- Mən Amerikanın Texas Ştatının Ostin şəhərindəki Universitetin məzunuyam. Texas Universitetində 50 min tələbə təhsil alır. 50 min tələbəyə 4 kitabxana xidmət edir.

1-ci kitabxana Qədim kitabxana adlanır. Bura ancaq antik dövrü əks etdirən qədim kitablar olan yerdir. Bu kitabxanaya muzey də deyirlər. Antik dövrü əhatə edən bu kitablar xüsusi qaydalara uyğun saxlanılır. Buna görə də bu kitabları oxucuların evə aparmağa ixtiyarı yoxdur. Bu kitablar yalnız kitabxana daxilində oxucular tərəfindən istifadə edilirlər.

2-ci kitabxana arxitektura kitabxanasıdır ki, bu kitabxana ancaq arxeoloqlar üçün nəzərdə tutulmuşdur.

3-cü və 4-cü kitabxana isə yalnız tələbələr üçün nəzərdə tutulmuşdur.

Xanım Min Liza söhbətinə davam edərək qeyd etdi ki, mən 4-cü kitabxananın oxucusu olmuşam. Bu kitabxana Amerika xalqının ən məşhur adamlarından biri olan Pəri Kostanyadanın adını daşıyır. Pəri Kostanyada kitabxanası 24 saat fasiləsiz işləyir, buranın itsirahət günü yoxdur. Yalnız işçilər iş növbələrini bir-birinə ötürməklə itsirahət edə bilirlər. Kitabxana oxuculara çox yüksək səviyyədə xidmət göstərir. Hətta imtahanlara hazırlaşan tələbələr də axşamdan səhərə qədər bu kitabxanada oturub imtahanlara hazırlaşa bilərlər. Onlar üçün də bu kitabxanada hər cür rahatlıq vardır. Pəri Kostanyada kitabxanası elektron kataloqu üzrə sistemləşmiş və bütün xidmət üsulları kompüter sistemi üzrə həyata keçirilir. Bu kitabxanada da bütün xidmət növləri pulsuz həyata keçirilir.

Kitabxanada 2 oxu zalı fəaliyət göstərir. İngilis, rus, türk və sair dillərdə qəzet və jurnallarla mütəmadi olaraq kitabxana təmin olunur. Oxu zalı eyni zamanda internet vasitəsi ilə də oxuculara çox yüksək səviyyədə xidmət göstərir.

Mən onlardan "Sizin kitabxanalarda asudə vaxtın təşkili" barədə danışmağı xahiş etdim. Həm xanım Min Liza və həm də Bamber Endi söhbətlərinə davam etdilər.

Həm E.B.Dutois adına kitabxanada, həm də Pəri Kostanyada kitabxanasında oxucuların asudə vaxtlarının səmərəli keçirilməsi üçün çox gözəl şəraitlər yaradılmışdır. Belə ki, bu kitabxanalarda bir neçə otaq xüsusi olaraq oxucuların istirahətləri üçün nəzərdə tutulmuşdur. Buraya gələn hər bir oxucu müxtəlif audio-video kasetlərdən, disketlərdən, kompüterlərdən, internetdən və sairlərdən istifadə edərək istirahətlərindən, asudə vaxtlarından səmərəli istifadə edə bilirlər.

"ABŞ-nın kitabxanalarında mədəniyyətin təbliği çox güclüdür" - söyləyən qonaqlarımız söhbətlərinə belə davam etdilər:

– Ayda bir dəfə hər iki kitabxanada (yəqin ki, digər kitabxanalarda da belədir) mədəniyyətlə bağlı filmlər nümayiş olunur. Hər ay bir dövlətin, bir ölkənin mədəniyyəti ilə bağlı filmlər nümayiş edilir. Bu filmlərə baxmaq hər bir oxucu üçün vacibdir. Çünki Amerika xalqı mədəniyyətin təbliğini ən güclü təbliğat hesab edir. Bu filmlər vasitəsi ilə oxucuları bütün dünyanın mədəniyyəti ilə tanış edirlər.

Həm xanım Min Liza və həm də Bamber Endi müxtəlif musiqi alətlərində ifa etməyi bacarırlar və bunu özləri üçün ən vacib peşə hesab edirlər. Bəlkə elə bu da mədəniyyətin güclü təbliğindən irəli gəlir.

Mən hər iki müsahibimdən əlamətdar tarixi günlərlə bağlı açdıqları sərgilər və keçirdikləri tədbirlər barədə məlumat verməlarini xahiş etdim.

Həm E.B.Dutois adına kitabxanasında və həm də Pəri Kostanyada kitabxanasında 3 cür sərgi olur - aylıq, illik və daimi. Bu sərgilər yubilyarın bütün yaradıcılığını əks etdirən şəkillərlə və kitablarla çox geniş əhatə olunur. İstər şəkillər, istərsə də kitablar sərgilər üçün ayrılmış xüsusi şüşələrin altında saxlanılır.



Bizim kitabxanalardan fərqli olaraq bu kitabxanalarda tədbirlər keçirilmir. Çünki qanuna görə kitabxana tam sakit olmalıdır. Hətta oxucular kitabxanada bir az bərk danışsalar bu oxucular kitabxana qaydalarını pozmuş hesab olunurlar və dərhal kitabxanadan xaric edilirlər. Ona görə də bütün oxucular bu sakitliyə rəayət etməyə borcludurlar.

Hər iki kitabxanada əlamətdar tarixi günlərlə bağlı tədbirlər xüsusi binada keçirilir. Tədbirlər üçün nəzərdə tutulmuş binalar kitabxanaya yaxın, lakin bitişik olmamalıdır. Çünki kitabxananın sakitliyi pozula bilər. Tədbirlər üçün nəzərdə tutulmuş binalar isə daim səs-küylü olur. Çünki mütəmadi olaraq burada tədbirlər keçirilir.

Mənim hər iki müsahibim kitabxana işçiləri haqqında maraqla danışmağa başladılar.

ABŞ-da kitabxanaçı işi ən vacib iş hesab edilir. Çünki hər bir oxucunun kitabxanada istədiyini əldə edə bilməsi bilavasitə onlardan asılıdır. Bunun üçün isə kitabxanaçı güclü, savadlı və bacarıqlı olmalıdır. ABŞ-da hər bir kitabxanaçı 4 il sırf kitabxanaçı ali təhsili almalıdır. Hətta elə də olur ki, 4 illik təhsil alan kitabxanaçıya kitabxanada işləmək icazəsi verilmir. Çünki o, tam savadlana bilməyib. Buna görə də kitabxanaçı alim kimi oxumalıdır - söylədi bizim qonaqlarımız.

Mən sonda onlara "Öz vətəninizə gedərkən Kürdəmirdən özünüzlə hansı xatirəni aparcaqsınız?" - sualını verdim. "Biz Kürdəmirdən özümüzlə çox şey aparacağıq" - söylədi bizim əziz qonaqlarımız. "Dostluq, səmimiyyət, mehribanlıq, sevgi, qonaqpərvərlik, qayğı"... Onlar danışır. Mən isə onlara baxıb düşünürəm.

Yaşından, milliyətindən asılı olmayaraq hər bir insana Allah tərəfindən gözəl bir xüsusiyyət verilib: Duyğu, ünsiyyət və bir də səmimiyyət. Bu belə olmasaydı insanlar tez bir zamanda bir-birlərinə bu qədər doğma olmazdılar. "Əgər oxucu kitabları kitabxanaya qoyulan vaxtdan gec qaytararsa, onda onlar barədə hansı tədbirlər görülür" sualını verdim.

Müsahiblərim söhbətlərini belə davam etdirdilər:

– Biz əvvəl də qeyd etdik ki, bu kitabxanalarda oxucuya xidmət pulsuzdur. Hər bir oxucuya kitabları qaytarmaq üçün iki həftə vaxt verilir. Bu vaxt bəzi səbəblər olduqda bir neçə gün uzadılır. Əgər oxucu kitabları bundan da çox saxlayırsa, onda onlar kitabxana qaydalarını pozmuş hesab edilir və pulla cərimə olunurlar. Hər bir oxucu kitabxana qaydalarına hörmət etməyə borcludur.

***Məryam Əliyeva,***
***Kürdəmir Rayon MKS-nin metodika-biblioqrafiya şöbəsinin baş kitabxanaçısı***

# Quba-Bakı-Quba...



Uşaqların dünyagörüşünün formalaşmasında ekskursiyaların müstəsna əhəmiyyəti vardır. Bunu yaxşı bilən Quba rayon incəsənət məktəbinin rəhbərliyi yetirmələrinin yalnız təlim-tərbiyəsi ilə kifayətlənmir, onların gəzintisi üçün də müvafiq tədbirlər görür. Diqqətinizə verdiyimiz bu şəkillər Bakıya səyahət zamanı çəkilmişdir. Məktəbin şagirdləri həm paytaxtımızı gəzmiş, həm də böyük korifeylərimiz Üzeyir Hacıbəyov və Səməd Vurğunun ev-muzeylərinə baş çəkmişlər. Bu mədəniyyət ocaqlarında gördükləri hələ uzun müddət onların yadından çıxmayacaqdır. Məktəb gələcəkdə belə gəzintilərin başqa bölgələrə təşkilini də planlaşdırır.

***N.XƏLİLOVA***



16622

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası